

Sərvər KAMRANLI

www.kaspi.az 16 may 2015

## RAHAT OLASAN

Durasan ayağa...özün-özünə,
Bir əlac qılasan, rahat olasan.
Tanrının əlindən qanı qaralmış,
Qələmin alasan, rahat olasan.

Artırıb sevincin, dəmin sayını,
Verəsən kədərin, qəmin payını.
Tapasan dərdlərin şah sarayını,
Taxtından salasan, rahat olasan.

Əzab qan ağlaya, gözünü sıxa...
Ömürdən getməyə yaman darıxa...
Kədər qız cildində qarşına çıxa,
Saçını yolasan, rahat olasan.

Yerdə gün atılır ömürdən hələ...
Göylərin adama yazığı gələ...
Asa yaxasından, yağmasan belə,
Buludtək dolasan, rahat olasan.

## BİR VAXTLAR GÖRDÜYÜN DEYİLƏM AXI

Ay mənə yenidən qayıdan qadın,
Bir vaxtlar gördüyün deyiləm axı.
Özünü özümdən soyudan qadın,
Bir vaxtlar gördüyün deyiləm axı.

Başımın üstünə artıq qar yağıb,
Gözlərim sən adlı gündə "Sən" doğub...
Həsrətin sevgimi çoxdandır boğub
Bir vaxtlar gördüyün deyiləm axı.

Özümün içində özüm ölübdür,
Dilimdə, qəlbimdə sözüm ölübdür.
Soruşma! Sevdiyin bezib ölübdür...
Bir vaxtlar gördüyün deyiləm axı.

Getdin... arxanca da gözüm yol çəkdi.
Gəlmədin... yolundan gözəllər keçdi...
Axır biri gəlib qəlbimə köçdü,
Bir vaxtlar gördüyün deyiləm axı.

## ASILIB QALMIŞAM DƏRD YAXASINDAN...

Soyuqluğu necə yaman üşüdür,
Ağladır ruhumu, ağladır, Allah!
Atıb ev-eşiyin o qız gedəndən,
Bağlıdır qapısı, bağlıdır, Allah!

Asılıb qalmışam dərd yaxasından,
Özüm də özümə qənim olmuşam.
Hardadı bəxt yazan... tapıb soruşun,
Görün bu taleyi ondan almışam?

İçimdə oxunmur eşqin nəğməsi,
Yox olub könlümdən sevgili çağlar.
Gəl, qayıt evinə, ay ev yiyəsi!
Nə qədər evinin divarı ağlar?!

## GECƏNİ GEYİB ƏYNİNƏ...

Gecəni geyib əyninə,
Gecəynən burdan qaçasan.
Göylərə əl açmayasan,
Göylərə cığır açasan.

Burda dəyib bir-birinə,
Yer adamı, göy adamı...
Deyəsən bu yer üzünün,
Qaçıb daha göyə tamı.

"Göydəki"ni tutub dilə,
Göylərə hakim olasan.
Elə onun gözü ilə,
Yerlərə nəzər salasan...

## KAŞ SƏNİN SEVDİYİN YALAN OLAYDIM...

Kaş sənin sevdiyin yalan olaydım,
Süzülüb çıxaydım şirin dilindən.
Yada ki, bircə cüt əlcək olaydım,
Soyuğu qovaydım pambuq əlindən.

Aldığın donunda kəmər olaydım,
Sarılıb qalaydım, incə belindən.
Qapqara gözünə gizli dolaydım,
Boylanıb baxaydım siyah telindən.

...Bir bağın olaydı...sevəydin bağı...
Bir gün xəyalımın tutub qolundan.
Gedəydik...nəhayət bir axşamçağı,
Məni çıxaraydın haqqın yolundan...

## İNDİ...

Yerdə görən nə görüb,
Hara qaçır adamlar...?
Ta bilmir çəkilməyə
dara qaçır adamlar.

İndi kimsə kimsəni
vurmağa qar düzəltmir.
Vuranlar, elə vurur,
Yüz yerdən sar, düzəlmir!

Köhnə damlar altından
nağıl səsləri gəlmir...
Nəvələrin bildiyin,
Nənələr indi bilmir.

Eşqlə alışan qəlblər,
Soyuyub buza dönüb...
Neçə qəlbdə neçə qız,
Daha "qarqız"a dönüb.

## QOL AÇIB GÖYLƏRLƏ QUCAQLAŞASAN

Göz yumub dünyanın halına bir gün,
Özündən ayrılıb, uzaqlaşasan.
İnciyib, gedəsən bu yer üzündən,
Qol açıb göylərlə qucaqlaşasan.

Sevməyə ürəyin kimi, kimsəni,
Axtarıb tapmaya ta heç kim səni...
Qocalıq səpdikcə saçına dəni,
Sənsə yavaş-yavaş uşaqlaşasan.

Hardasa bir yetim uşağı görsən,
Boynunu bükülmüş, aşağı görsən...
Soyuqdan titrəyən dodağın görsən,
Girəsən qəlbinə, ocaqlaşasan.

## GEDİRƏM KƏNDİMƏ UŞAQLAŞMAĞA...

Yenə də yolları geyib əynimə,
Vətəndən Vətənə səfər edirəm.
Hələlik dostlarla sağollaşmışam,
Özümdən özümə qonaq gedirəm.

Ora Vətənimin uca zirvəsi,
Orda ulduzlar da yaxındır yerə...
Orda bir qız ola səni sevəsi,
Hələ gəldiyimi yuxuda görə.

...Özümü unudub, bənzəyib yada,
Xəyalım yol alıb dərəyə, dağa.
Çəkdiyim qayğını qoyub Bakıda,
Gedirəm kəndimə uşaqlaşmağa.